

*“Azərbaycan” qəzetinin 299-cu nömrəsinin 1-ci səhifəsi*





**Bazar, 19 oktyabr 1919-cu il, nömrə 299**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Yekşənbə, 24 məhərrəmül-haram sənə 1338. 19 təşrini-əvvəl 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə “Azərbaycan” idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 2 manat 50 q.**

**Abunə şəraiti: Qeyri şəhərlər üçün 1 aylığı 70 rublə, 2 aylığı 130 rublə, 3 aylığı 180 rublə. Bakı üçün 1 aylığı 60 rublə, 2 aylığı 110 rublə, 3 aylığı 150 rublə. Abunə şəraiti ancaq həmin sənə yanvar ayının 1-nədək heasb olunur.**

**Elan fiatı: birinci səhifədə sətri 8 rublə, axırıncı səhifədə sətri 6 rublə, itən şeylər və yer axtaranlar üçün 4 rublə axırıncı səhifədə, 6 rublə birinci səhifədə.**

## ELAN

Hökumət Müfəttişliyi naziri həzrətlərinin 12 həmin oktyabr 1438 nömrə təliqəsinə binaən [rəsmi məktubuna əsasən], bu gündən etibarən Cümhuriyyətimiz daxilində olan ümum gömrükxanaların və əvvəl mərhələdə Ağstafa gömrükxanasının təftişinə şüru etdim [başladım]. Ümumdan kamali-ehtiramla rica və təmənna edirəm ki, məzkur [deyilən] gömrükxanaya əşya və malların müsadirəsi və hakəza [habelə] qeyri biqanunluqlar barədə olan şikayətlərini Hökumət Müfəttişliyi Nəzarətinə (dəniz kənarı Mirbabayevin evləri) kitabətən [yazılı] və yaxud və ya şifahən Ağstafa istasyonunda məlum və ixbar etsinlər [xəbər versinlər].

*Dövlət Müfəttişliyi nazirinin*
*xüsusi əmrlər məmuru:*
*Məcnunbəyov.*
*T-290*

## ELAN

Bununla Azərbaycan Dəmiryol İdarəsi məlum edir ki, Türüq və Məabir nazirinin 919-16/7-ci ildə verdiyi icazənamə üzrə elan olunan gündən Bakı şəhər istasyonu körpüsünə gələn paraxodlardan atidəki xərclər alınacaqdır:

1) 15 min pud yükü və boş olan paraxodlardan sutkada 300 rublə;

2) 40 min pud yükü olan paroxodlardan sutkada 500 rublə;

3) 4 min pud yükü olan lodka, kərəci və barkazlardan sutkada 100 rublə;

4) Dəmiryol ilə gələn yükləri şəhərə gətirən lodkalardan bir vaqondan 150 rublə.

Yuxarıda zikr olunan xərclər Dəmiryol İdarəsi ilə şəraitə girməyən paraxod sahiblərindən alınacaqdır.

*T-285*

## SİRK “MODERN”

Yekşənbə günü oktyabrın 19-nda 1919-cu ildə məşhur sportsmen Pyotr Nikolayeviç Yelizarov tərəfindən mükəmməl surətdə təşkil edilmiş Fransa güləş mübarizəsinin mabədi.

Bu gün 3 cift pəhləvan mübarizə edir.

1-nci: nəticəli mübarizə: Zakoroyko – Naməlum.

2-nci: nəticəli mübarizə: Qara Maska – Buyvolov.

3-ncü: Qara Maska tərəfindən üç min manat mükafat: Staroşvili – Oleynikov.

Pəhləvanların çıxışı və mübarizənin

başlanması saat 11-in yarısında. Tamaşa başlanacaq 8-də, qurtaracaq 12-də. Mübarizə Yelizarovun təhti-nəzarətində [nəzarəti altında] olacaqdır.

*11459*

**BAKI OBŞESTVENNI SOBRANİYANIN BÖYÜKLƏR ŞURASI**

Dəvət edir üzvləri və namizədləri öz üzvlük qəbzlərini 1919-1920-ci il üçün təzələşdirməyə. Ustavın 9 və 19-cu maddələrinə görə, qəbzlərin təzə olunması həmin noyabr ayının 3-nədək olacaqdır.

*T-291*

## İSTİQLAL MÜDAFİƏSİ ÜÇÜN

Rusiyadan ayrılmış və millətlərinin arzu və iradəsi ilə müstəqil cümhuriyyətlər təşkil etmiş olan yeni dövlətlərin cümləsi bir məsələdə həmfikirdirlər. Bu fikir birliyi, məzkur [deyilən] dövlətləri, biri-birindən nə qədər uzaq olmuş olsa da, yek-digərinə [bir-birinə] mənən və ruhən mərbut edir [bağlayır]. Bir-birinin halına biganə qalmağa imkan verməyir. Yek-digərinin ələm və fərəhinə şərik etdirir və böyləliklə, arada ruhani olaraq bir qərabət [yaxınlıq] və mənəvi olaraq bir ittifaq və ittihad [birlik] əmələ gətirdir.

O hansı məsələdir?

O məsələ – Dağıstan, Azərbaycan və Gürcüstandan ötrü Şimal; Ukrayna, Polşa, Estoniya və Litva üçün Şərq; Finlandiya və Şimal millətləri üçün Cənub təhlükəsi təşkil edən Rusiya məsələsidir və bu məsələ üzərində bunları birləşdirən fikir rus təhlükəsindən qorunmaq və bu təhlükənin vüqusu ehtimalından təmin edilmiş olmaq üçün çarələr aramaq fikridir.

Bu çarələrdən ən birincisi və ən mötəbər hesab ediləni yeni cümhuriyyətlər istiqlaliyyətlərinin Sülh Konfransı tərəfindən rəsmən tanınmaq keyfiyyəti olduğu üçün məzkur cümhuriyyətlər müharibə zamanında istər o tərəfin, istər bu tərəfin virdi-zəbanı olan [dilindən düşməyən] "Millətlər azadlığı" şüarına və bundan daha fəzlə Amerika rəisi-cümhuru müsyö Vilsonun məşhur on dörd maddəlik əsasına istinad edərək Sülh Konfransı nəzdinə mürəxxəs [nümayəndə] göndərdilər.

Fəqət mürəxxəslərin getdiyi bir sənə olmağa yaxındır ki, hələ onlara indiyə qədər "hə" və ya "yox" deyən olmayıbdır. Sülh Konfransının işi çox olduğundan, hələlik böylə məsələlərin sırası yetişməmişdir.

İş böylə ikən, Sülh Konfransından tanınmaq ümid və intizarında olan yeni cümhuriyyətlərdən bir neçəsi mərama nail olmadan əvvəl, rus təhlükəsinin nakam qurbanı oldular. Məsələn, Dağıstan, Ukrayna və bu günlərdə rus-alman intriqasına hədəf edilmiş olan Latviya.

Bu qurbanları, hətta Müttəfiqlərin onlara qarşı göstərdiyi rəğbət və hüsn-təvəccöhləri də fəlakətdən qurtara bilmədi. Bu vəqələr yeni cümhuriyyətlərdən yerdə qalanlarını, təbiidir ki, xof və əndişələrə saldı. Bu xof və əndişə Denikinin bolşeviklər üzərindəki müzəffəriyyət və müvəffəqiyyətləri dolayısilə daha da artmağa başlayıb, məzkur cümhuriyyətləri müztərib [iztirablı] bir vəziyyətdə qoymuşdur. Çünki işlər böylə gedərsə, yerdə qalan cümhuriyyətlər dəxi Denikin hücumlarına məruz qalmaqla, axırda iş o məqama çatar ki, Sülh Konfransı yeni cümhuriyyətlər istiqlalı məsələsini artıq böylə bir məsələ mövcud olmadığı üçün ruznameyi-müzakiratdan qaldırmağa [müzakirə gündəliyindən çıxarmağa] və əmri-vaqe [fakt] qarşısında boyun əyməyə məcbur olar.

Zatən işi bu məqama çatdırmaq üçün "vahid rusiyaçı"lar arasında əməklər sərf edilməkdədir. Sülh Konfransında Rusiya məsələsinə baxılmaq zamanı yaxınlaşdığına görə, "vahid rusiyaçı"lar vəziyyəti dəyişdirmək və bu yol ilə konfrans müzakiratına icrayi-təsir etmək üçün cürbəcür vəsilələrə əl aparırlar.

Denikin və kolçaklar Müttəfiqlər pulu ilə bolşeviklərə müharibə və Rusiyadan ayrılmış millətlər üzərinə hücumlar etməkdə ikən, imperialist Rusiyanın köhnə diplomatları gah yaponlarla gizli surətdə danışıqlara girmək və gah [Rüdiger] fon der Qolts kimi alman generallarla ittifaq yapmaq kimi təşəbbüslər nümayişi ilə Avropanı qorxutmaq və Sülh Konfransında Rusiya məsələsini arzularına müvafiq bir surətdə mövqeyi-müzakirəyə vəz etdirməyə [müzakirəyə qoydurmağa] çalışırlar.

Etiraf etməlidir ki, böylə nümayişlər əsərsiz qalmayır. Fransa Xariciyyə nazirinin Parlamanda sərd etdiyi mülahizat [meydana atdığı fikirlər] buna dəlildir. Bu isə "vahid rusiyaçı"ların ümidlərinə daha da cəsarət verib, "vahid və qeyri-qabili-təqsim [bölünməz] Rusiya"nın – parçalanmaq nərəsidir ki [parçalanmağı, bölünməyi bir tərəfə qalsın] – yeni torpaqlar qazanacağı, hüdudunun bir az daha genişlənəcəyi xülyalarına meydan buraxır.

İştə, bu növ mülahizələr və Denikin təhlükəsinin yaxınlığı yeni cümhuriyyətləri ciddi əndişələrə salıb, çarələr aramağa vadar edir.

Bu çarələr xüsusunda Gürcüstan rəsmi mətbuatının fikri budur ki, Qafqazdakı cümhuriyyətlər bir-birləri ilə sıxı bir ittifaq bağlamalı və əlavə, Avropa dövlətlərindən birinin müzahirətinə [köməyinə] istinad etməlidir. Avropa dövlətlərindən böylə bir müzahirət vüqusuna imkan vardır. Əgər bu dövlətlərdən birisi Qafqazla iqtisadi əlaqələrə girərsə, mənafeyinin diktə edəcəyi əmr üzərinə bu cümhuriyyətlərə müavinət və müzahirət göstərməyə məcbur olacaqdır.

Gürcü mətbuatının mülahizatı təhlükə qorxusu saiqəsi [sövq etməsi, səbəbi] ilə ağlın hökmündən artıq qəlbin iztirabı ilə söylənən sözlər deyil. Biləks [əksinə], "əlaci-vaqeə piş əz vüqu bayəd kərd" məfadınca [mənasına uyğun olaraq], hifzi-istiqlal [müstəqilliyi qorumaq] üçün indidən aranılması lazım gələn çarələrin ən mötəbər və ən məqulundan [ağlabatanından] bəhs açmaqdır. Mədəni Avropa ilə yaxınlaşmaq, ora ilə iqtisadi əlaqələr peyda etmək Qafqaz cümhuriyyətləri üçün mənfəətdən başqa zərər verməz və siyasi vəziyyətimizi bərkitməklə, qurduğumuz təşkilatın pozulmasına məhəl [imkan, yer] buraxmaz.

Avropalılardan mədəniyyətcə neçə qat geri olan və elani-istiqlaliyyətimizdən dolayı qəlblərində bizə qarşı dərin bir kin, gizli bir nifrət bəsləməkdə olan rusların təkrar təhti-əsarətinə [əsarəti altına] düşüb də istiqlaldan məhrum olmaq və əvvəlkilərdən daha artıq təzyiq və sıxıntılar çəkmək və bəlkə tamamilə məhv

olmaqdansa, mədəni avropalılarla sıxı əlaqələrə girmək və onların kömək və müzahirətinə istinadla istiqlaliyyətimizi möhkəmləşdirmək yaxşıdır. Bu xüsusda iki rəy ola bilməz. Əqli-səlimin [sağlam düşüncənin] hökmü və mühitimizdəki əhvalatdan anlaşılan məntiq böylə çarələri caiz və vacib bilir.

Avropalıları bizə və bizi onlara yaxınlaşdıra biləcək rabitələr meydanda mövcuddur. Qafqazın və baxüsus [xüsusilə] Azərbaycanın bitməz-tükənməz sərvəti-təbiiyyəsi avropalıları bu tərəfə qarşı laqeyd buraxmaz. Əhali və hökumət tərəfindən göstərilən meyil və rəğbət isə buna bir təşviq olar.

Cümhuriyyətlər arasındakı ittifaqa gəlincə, yuxarıda ərz etdiyimiz üzrə, rus təhlükəsinin dəf'i fikri, deyil yalnız Azərbaycanla Gürcüstanı, bəlkə sabiq rus dövlətini təşkil edən və bu gün elani-istiqlal etmiş olan bilcümlə [bütün] yeni cümhuriyyətləri bir-birinə fikrən və ruhən mərbut etmişdir. Əgər Azərbaycan və Gürcüstan arasında əqd edilmiş [bağlanmış] olan ittifaqi-tədafüi [müdafiə ittifaqı], bu cümhuriyyətlərin cümləsi arasında yapılmaqla bunları əl-ələ verdirmiş olsaydı, daha gözəl olardı. Vaqiən [doğrudan da] böylə bir ittifaq vüqusu mümkün olsaydı, bundan təşəkkül edən maddi və mənəvi qüvvət, rus imperializmasının hirs [hərislik] və tamahına əbədi olaraq bir xatimə çəkə bilərdi. Halbuki böylə bir ittifaq əqdi qeyri-qabili-hüsul ədd ediləcək [imkansız hesab ediləcək] bir xəyal deyildir. Ruhi və mənəvi mərbutiyyətin “realnı” bir ittifaq əqdi ilə nəticələnməsi təbiidir. Bunun üçün ancaq təşəbbüs lazımdır.

*Hacıbəyli Üzeyir*

## MƏCLİSİ-MÜƏSSİSAN SEÇKİLƏRİ HAQQINDA QANUN

**Altıncı bab**

**Seçki vərəqələrinin verilməsi və sayılması**

49. Seçki vərəqə vermək təriqi [yolu] ilə icra olunur.

50. Seçki vərəqələri zahirən bir cür olmalıdır. Seçki vərəqələrinin surəti Mərkəzi Komisyon tərəfindən təyin olunaraq seçkilərdən əqəllən [ən azı] qırx gün əvvəl ümuma elan edilir.

51. Hər vərəqə bilatəğyir və təbdil [dəyişdirmədən, eynilə] namizəd siyahılarından birisini, siyahının nömrəsi, varsa həman siyahını çıxaran təşkilatın adını havi olmalıdır [ehtiva etməlidir].

52. Seçki vərəqələri üçün hazırlanan zərflər bir cürə ölçü, təmiz və qeyri-haki [qeyri-şəffaf] olub Mərkəzi Komisyonun möhürü ilə möhürlənməlidir.

53. Seçki vərəqə zərfləri Mərkəzi Komisyonun binagüzarlığı [sərəncamı] ilə hazırlanır.

54. Seçki vərəqələrində namizədlər siyahısı türkcə yazılmalıdır. Fəqət siyahı verən qrupun ixtiyarı var kəndi siyahısının istədiyi dildə tərcüməsinin dəxi əlavə olunmasını tələb etsin. Böylə tələb varid [daxil] olduğu zaman, qrupun borcudur ki, tərcüməsini də təqdim qılsın.

55. Seçki vərəqə zərfləri hazırlandıqdan sonra Mərkəzi Komisyonun binagüzarlığı ilə ələlümdə [birinci növbədə] qəza komisyonlarına göndərilir.

56. Qəza seçki komissiyaları əvvəlcə şəhər intixabçılarının [seçicilərinin] hər biri üçün adlı şəhadətnamə hazırlayırlar. Bu şəhadətnamədə seçkiçinin adı, atasının adı, familiyası, ləqəbi (təxəllüsü), ünvanı, mənsub olduğu seçki məntəqəsi, siyahıda hankı nömrə altında qeyd edilmiş olduğu və həmçinin nə vaxt və nə yerdə səs verəcəyi qeyd edilməlidir.

Qeyd 1: Adlı şəhadətnamələr ancaq şəhər intixabçıları üçün lazımdır.

Qeyd 2: Müstəsna ittifaqlarda [hallarda] seçki komisyonları şəxsiyyəti təyin edici sair vasitələrlə qənaətlənə bilərlər.

57. Qəza və xırda köy komisyonlarının borcudur ki, seçki günündən əqəllən [ən azı] yeddi gün əvvəl hər bir intixabçıya ümum siyahılardan birər nüsxə, şəhər intixabçılarına birər nüsxə də adlı şəhadətnamə paylasınlar. Adlı şəhadətnamə və seçki vərəqəsi almaq haqqına malik ikən bu ya o səbəbdən almamış olan əşxasa [şəxslərə] şəhadətnamələr qəza komisyonlarından, seçki vərəqələri isə intixabat günü məntəqə seçki komisyonunda verilir.

58. Qəza yaxud kənd icması komisyonları seçki vərəqələrini salmaq üçün bir dəlikli sandıq hazırlayaraq xırda seçki vahidləri binagüzarlıqlarına [sərəncamlarına] göndərirlər.

Qeyd: Xüsusi şəraitdən dolayı sandıq hazırlamaq mümkün olmasa, mövcud sandıqlardan dəxi istifadə etmək olar. Bu şərtlə ki, məzkur sandıqlar yuxarıda zikr olunan tələblərə müvafiq olsun.

59. Bələdiyyə məclisi idarələri və kənd icması müəssisələri seçki icrası üçün seçki komisyonlarına lazım olan binaları verməlidirlər.

60. Seçkilərin gizliliyini təmin qəsdi ilə seçki icra olunan binada bir və ya bir neçə örtülü bölmələr olmalıdır ki, seçkiçilər vərəqələri orada zərfə qoysunlar.

61. Məntəqə seçki komisyonlarının iclasları açıq olmalıdır. Səs verilmək üçün təyin edilmiş gündə komisyon sədri komisyon əzasının [üzvlərinin] və o vaxtadək yığışmış olan intixabçıların hüzuru ilə komisyon iclasını açılmış elan edər. Sədr isbat və təsdiq edər ki, sandıqlar boş və salamatdır. Bundan sonra sandıqları qapar, möhürlər və seçkiciləri seçki vərəqələrini verməyə dəvət edər. İntixabat başlanandan qutaranadək komisyon əzasının əqəllən yarısının isbati-vücud [iştirak] etməsi əlzəmdir.

62. Seçki əməliyyatı üçün təyin edilmiş binada ancaq seçkilər icra oluna bilər. Seçki olan odalarda, pilləkənlərdə, odalara gedən yerlərdə, qapılarda və dişarıda müraciətnamə asmaq, risalə, lövhə və seçki təbliğatı icra etmək məmnudur [qadağandır]. Məntəqə seçki komisyonu sədri seçki əməliyyatı vaxtı nizam və asayişin hökmfərma olmasına [hökm sürməsinə] diqqət verməli və asayişi pozanları bilatəxir [dərhal] kənar etməlidir.

63. Müsəlləh [silahlı] şəxslər və keyifli [kefli; sərxoş] halında olan adamlar seçki icra olunan binaya buraxılmazlar.

64. Sədrin ixtiyarı var ki, lazım olduğu təqdirdə komisyonun qərardadı ilə idareyi-mülkiyyə və hərbiyyəyə [hərbi və mülki idarələrə] müraciətlə milis yaxud əsgər qitəatı [hissələri] göndərilməsini tələb etsin. Məzkur milis və ya əsgər qitəatı tamamilə sədrə tabe olub, ancaq onun binagüzarlığı ilə iş görməlidirlər.

65. Nizam və asayiş pozulduğu, yaxud bir şəxs sədrin ya komisyonun binagüzarlığına tabe olmadığı təqdirdə, komisyonun ixtiyarı var seçkilər icra olunan binaya milis və ya əsgər qitəatı gətirməyə qə-

rar versin. Komisyon sədri tələb etmədikcə, məzkur binaya böylə müsəlləh qüvvə yeritmək olmaz.

66. Seçkilər Məclisi-Məbusanın təyin etdiyi ay və gündə başlanaraq üç gün davam edər. Məntəqə seçki komisyonu üç gün şəhərlərdə səhər saat 9-dan axşam 9-adək və kəndlərdə isə səhər saat 8-dən axşam 8-ədək açıq olmalıdır.

67. Seçki[çi]lər seçki vərəqələrini şəxsən verərlər.

68. Seçkiçi kəndi şəhadətnaməsini komisyon əzasından birisinə verərək komisyondan zərf alar və seçki vərəqəsini həman zərfə qoyar. Şəhadətnaməni təhvil alan komisyon üzvü həman şəxsin seçkiyə gəldiyini seçkiçilər siyahısında qeyd edər.

Qeyd: Köylərdə adlı şəhadətnamə icbari olmadığından, seçkicilərin şəxsiyyətini komisyon kəndisi təsdiq edər.

69. Zərfi aldıqdan sonra seçkiçi örtülü odaya keçərək seçki vərəqəsini həman zərfə qoyar, yapışdırar və sonra gətirib komisyon sədrinə verər. O dəxi seçkiçinin gözü önündə zərfi seçki sandığına salar.

70. Seçki günləri hər axşam şəhərlərdə saat 9-da, kəndlərdə saat 8-də seçkilər icra olunan oda qapanar. Bu zaman ancaq qapı bağlanmadan əvvəl gəlmiş olan seçkiçilərin vərəqələri qəbul edilər. Vərəqələrin qəbulu qurtardıqdan sonra o gün münqəte olunduğunu [başa çatdığını] elanla, sandıqların dəliyini (ağzını) sabahadək möhürlər. Bundan sonra sədrin binagüzarlığı ilə seçki odasında bulunanlar çıxıb gedərlər. Odanın qapısı möhürlənər və oraya qaraqol qoyular.

71. Üçüncü gün şəhərlərdə axşam saat 9-da, köylərdə saat 8 tamamda seçki icra olunan odanın qapısı qapanar. Bundan sonra ancaq qapanmadan əvvəl gəlmiş olanların vərəqələri qəbul edilər. Vərəqə qəbulu qurtardıqdan sonra sədr intixabatı qurtarmış elan və bina qapısının açılması haqqında binagüzarlıq edər. Bədəhu [bundan sonra] komisyon zərfləri açılmadan sayar; əgər zərflərin miqdarı seçkiçilər siyahısında iştirakı qeyd edilmiş olan seçkiçilərin miqdarına mütabiq [uyğun] gəlməsə, bu xüsus məzbətəyə [protokola] qeyd edilər. Bundan sonra zərflər açılaraq vərəqə oxunar.

72. Mərkəzi seçki komisyonunun binagüzarlığı ilə hazırlanmış olan vərəqələrlə bərabər, eyni məzmunda olan sair vərəqələr dəxi mötəbər hesab olunar. Eyni zamanda türkcə məzmunu ilə bərabər başqa lisanda tərcüməsi olan vərəqələrdən dəxi mötəbər ədd [hesab] olunar.

Qeyd: Mötad [qəbul edilmiş] seçki vərəqəsi əvəzinə adi kağız üzərində əl ilə yazılmış yaxud çap olunmuş nömrələr dəxi verilə bilər.

73. 48, 50 və 51-ci maddələrə müvafiq olmayan vərəqələr, saniyən [ikincisi], lazım gələn şeylər yazılmamış olan vərəqələr, salisən [üçüncüsü], seçkiçi tərəfindən imzalanmış, qaralanmış, ləkələnmiş, qaşınmış, intixabçı tanıtdıra biləcək bir əlaməti havi [daşıyan], yaxud böylə əlamətləri havi olan zərfə qoyulmuş olan seçki vərəqələri, rabiən [dördüncüsü], tam mənası ilə eyni məzmunda olmamaq üzrə bir zərfdən birdən ziyadə vərəqə çıxsa bu vərəqələrin həpsi – bu dörd maddədə göstərilən vərəqələrin cümləsi etibardan saqit [etibarsız] hesab olunar. Əgər bir zərfdən eyni məzmunda bir neçə vərəqə çıxsa, onlardan ancaq biri mötəbər əld [hesab] olunar.

74. Bir vərəqə şübhəni mövcib olarsa [şübhəyə səbəb olarsa], onun mötəbər olub-olmaması komisyon tərəfindən əksəriyyəti-ara ilə qət edilər [səs çoxluğu ilə müəyyənləşdirilər]. Səslər bərabər çıxsa, sədrin səsi olan zərf üstün gələr.

75. Mötəbər hesab olunan vərəqələr hər siyahı üçün ayrıca sayılar.

76. Komisyonun iclası açılandan qapananadək hər nə vaqe olsa, məzbətəyə qeyd edilər. Əzcümlə [o cümlədən] sədrin ümum binagüzarlıqları, komisyonun qərardadları, iclasda isbati-vücud edən əşxasdan sadir ola biləcək [meydana gələ biləcək] bəyanat və ərzi-hallar məzbətəyə qeyd edilər. Bundan əlavə, hər siyahıya nə qədər səs (vərəqə) verilmiş olduğu, həmçinin etibardan saqit əld olunan vərəqələrin miqdarı və nə üçün saqit əld edildiyi haqqında bəyanat qeyd olunmalıdır. Məzbətəni sədr, katib, komisyon əzası və isbati-vücud edən seçkiçilərdən hər kəs istəsə, həpsi imza edərlər.

77. Məzbətə Qəza Komisyonuna göndərilər. Məzbətə ilə bərabər ayrı-ayrı paketlərlə:

1) Komisyon tərəfindən mötəbər tələqqi [hesab] edilmiş olan seçki vərəqələri;

2) Komisyon tərəfindən mötəbər, fəqət komissiya əzasından bu, ya o şəxs tərəfindən məznun [şübhəli] tutulan vərəqələr;

3) Bəzi əzanın rəyinə rəğmən, komisyon tərəfindən etibardan saqit əld olunan və;

4) Komisyon tərəfindən müttəhidülrəy [yekdilliklə] etibardan saqit tələqqi olunan vərəqələr dəxi göndərilərlər.

78. Qəza Komisyonu məzbətəni və seçki vərəqələrini nəzərdən keçirdikdən sonra hankı vərəqələrin mötəbər əld edildiyini və çıxarılmış olan siyahıların hər birinə məntəqə, qəza və şəhərdə cümlətanı nə qədər səs (vərəqə) verilmiş olduğunu qəti surətdə təyin edər.

79. Qəza İntixab Komisyonunun məzbətəsi məntəqə komisyonlarının məzbətələri ilə bərabər Mərkəzi Komisyona göndərilər. Məzbətə ilə bərabər də 77-ci maddənin 2-4 cüzlərində [bəndlərində] göstərilmiş olan seçki vərəqələri dəxi göndərilməlidir.

80. Qəza Seçki Komissiyasının, məntəqə komisyonu məzbətələrinə baxılan və verilmiş olan vərəqələr sayılan iclas açıq məclisdə icra olunar.

81. Komisyonların məzbətələri türk dilində yazılmalıdır.

Qeyd: Komisyon türk dilini bilmədiyi təqdirdə, məzbətə sair dildə dəxi yazıla bilər.

*(mabədi var)*

## TELEQRAF XƏBƏRLƏRİ

*(Qafqaziyada olan Müttəfiqlər heyəti radiosu)*

**Latviya istiqlalı**

Londonda olan Latviya işlərinə dair müvəkkil Parisdə olan Latviya mürəxxəslərinə [nümayəndələrinə], Lord Kerzonun dediyinə görə, İngiltərə dövləti Latviyanın müstəqil dövlət olduğunu etiraf [qəbul] etdiyini xəbər vermişdir.



XIII cild "AZƏRBAYCAN" QƏZETİ

**Fiume məsələsi**

Romadan xəbər verirlər ki, Fiume məsələsinə dair Sülh Konfransının qərarnaməsini gözləməyərək Fiumeni ilhaq etmək [özünə birləşdirmək] və yainki Sülh Konfransının qətini [qərarını] gözləyərək İtaliyaya Fiumedə hüquq və ixtiyarat verilməsinə israr etmək xüsusunda Nitti Məclisi-Məbusan müzakirəsinə iki sual təqdim edəcəkdir.

**Romaniyada vüzəra böhranı**

Romaniyada vüzəra [hökumət] böhranı qurtarmamışdır. Bükreşdən [Buxarestdən] verilən xəbərlərə nəzərən, Maniuya bu vaxta qədər Kabinə tərtib vermək mümkün olmamışdır. Bratianu Kabinəsi heyətində bir neçə təğəyyürat [dəyişikliklər] əmələ gəldikdən sonra yenidən hökumət başına keçməsini güman edirlər.

**Yunan hüquqşünasları**

Fransada hüquq işlərini öyrənməkdən ötrü yunan hökuməti tərəfindən ezam edilən beş nəfərdən ibarət yunan hüquqşünasları heyəti Parisə varid oldular [gəlib çatdılar].

**Almaniya mətbuatı**

**"Deyli ekspers"in qraf Qolts ilə müsahibəsi**

"Lokal-Anzeyqer" qəzetəsi böylə müsahibənin əsla olmadığını və qraf Qoltsun ancaq əsgərləri itaətə gətirməyə dair çətinliklər xüsusunda söylədiyini bildirir. Hökumətin hökmünə görə, bir neçə gün bundan əqdəm [qabaq] Qolts böylə yalan xəbərlərin xüsusunda özünün bəyanatını elam [elan] edəcəyini bildirmişdir. Almaniya dövləti Baltik mahallarına sərnişin qatarlarının hərəkatını büsbütün saxlamışdır. İndilikdə oralara ancaq qoşun gətirməkdən ötrü boş qatarlar göndərilir. General [Rüdiger] fon der Qolts yekşənbə [bazar] günü komandanı general [Valter] fon Eberhardta vermiş və özü dəxi bu yaxın günlərdə Berlində gözlənilir.

*(Bolşevik xəbərləri)*

**Qırmızı partizan**

Qomel - "Veçerniy mir" xəbər verir ki, Moskvanın 10 çağırımlığında qırmızı partizan dəstəsi Kiyev şəhərinə Könüllü ordu üçün ərzaq aparmaqda olan qatarı əhatə edib qatar qaraqolunu kəsdikdən sonra, həştad milyon manatdan yuxarı ərzaq aparmışlardır.

**Təkzib**

Helsinqfors [Helsinki] - Varşavadan xəbər verildiyinə görə, Rusiyada olub bolşeviklər tərəfindən edam edilmələri xəbər verilən bir Amerika generalı Qudvin ilə İngiltərə təyyarəçisi Parisə getməkdən ötrü İşim sərhədinə gəlmişlərdir.

**Yeni müharibə ərəfəsində**

Fiumedən Parisə teleqrafla bildirirlər ki, Cənubi Slaviyada səfərbərliyə başlanılmışdır. Dörd batareya Zaqrebdən Fiumeyə göndərilmişdir. "Tampa" qəzetəsi İtaliya hökumətinin Fiume könüllü ordusunun slavyanların yek-digəri müqabilinə [bir-birinə qarşı] mübarizədə bulunmalarını namümkün hesab edir. Ümumi çıxış gözlənir. (buraxılmış)

Bir İtaliya paraxodu Cənubi Slovak qoşunları tərəfindən atəşə düçar olmuşdur. Belqraddan xəbər verirlər ki, əhali Fiumedən və Şimali Dalmaçiyadan italyanlardan qaçmaqdadır. D'Annunsionun çıxışı qeyri yerlərdə dəxi toqquşmalara bais olmuşdur. Trau şəhəri ətrafında İtaliya dəstələri hücuma keçmişdirlər. Mətbuat son dərəcədə həyəcana gəlmişdir. Rəsmi Belqrad "Demokrat" qəzetəsi kəskin bir surətdə İtaliya dövlətinə təərrüz [hücum] edərək D'Annunsio avantürasını rəsmən İtaliyanın təqviyə etdiyini izhar edir [dəstəklədiyini bildirir].

**SÜLH ƏTRAFINDA**

**Sülh müahidəsi**

Versay müahidənaməsi [sazişi] 53 rəyə [səsə] qarşı 372 rəy ilə Fransa Məclisi-Məbusanı tərəfindən 2 təşrini-əvvəldə [oktyabrda] qəbul edilmişdir və sonra 1919-cu sənə 28 həziranda [iyunda] Fransa ilə Cəmahiri-Müttəfiqə [Birləşmiş Ştatlar] və Fransa ilə İngiltərə arasında əqd edilmiş [imzalanmış] müahidələr müttəhidülrəy [yekdilliklə] qəbul edilmişdir. Şu müahidələr mövcibincə [bu sazişlərə əsasən] məzkur [deyilən] dövlətlər, Almaniyanın hücum etdiyi təqdirdə Fransaya kömək etməlidirlər.

**Pribaltik həvadisi [xəbərləri]**

Müttəfiqlərin Pribaltik arzularına müvəffəq olmaq üçün "Tan" və başqa Paris qəzetələri Frankfurt-Maynın işğal edilməsini məsləhət görürlər. Bu münasibətlə Almaniya qəzetələri yazırlar ki, sülh əqdindən [imzalanmasından] sonra da Fransa qüvayi-əsgəriyyə [hərbi güc; ordu] ilə Almaniyanı təzyiq etmək fikrindən daşınmaq istəməyir.

**Berxtoldu tələb edirlər**

Bolşevik qəzetələrinə görə, Müttəfiqlər sabiq Avstriya Xariciyyə naziri Berxtoldun verilməsini tələb edirlər.

**Şandun məsələsi**

Sülh Konfransında olan Çin mürəxxəsləri [nümayəndələri] Almaniya sülh müahidəsini imza etmədən imtina etmişdir. Səbəbi də çinlilərin Şandun məsələsinə baxılmasının təxirə salınmaq tələbinə riayət edilməməsidir.

**İngiltərə kralı və Almaniya müahidəsi**

London - Sülh müahidənaməsindən başqa İngiltərə kralı Almaniya ilə Reyn vilayətləri və Lehistan məsələləri barəsində olan etilafnamələri də [razılaşmaları da] imza etmişdir.

**Məclisi-Alidə**

Fransa, İngiltərə, Cəmahiri-Müttəfiqə [Birləşmiş Ştatlar] və İtaliya hökumətləri tərəfindən Bükreş [Buxarest] hökumətinə veriləcək notanı, Almaniyada olan Rusiya əsirlərinə nəzarət etmək üçün Berlinə göndəriləcək beynəlmiləl komissiya təyini və Avstriyada beynəlmiləl nəzarət komissiyası təşkil etmək layihələrini Məclisi-Ali təsvib etmişdir [bəyənmişdir].

**Kolçak və Denikin istidası**

Almanlar tərəfindən müharibə zamanı zəbt və qənimət edilmiş Rusiya ləvazimati-hərbiyyəsinin [hərbi ləvazimatının] Kolçak və Denikin ordusuna verilməsi istidası [xahişi] Məclisi-Ali tərəfindən qəbul edilmişdir.

**Protesto**

Latviya hökuməti Müttəfiqlərə nota

ilə müraciət edərək, Qərbi Rusiya hökuməti tərəfindən başlanmış müharibə hərəkatına qarşı protesto izhar etmişlərdir [bildirmişdir].

## QƏZETƏLƏRDƏN

**Moskva təhlükə altındadır**

Moskva qəzetələri yazırlar ki, Oryolun süqutu ilə Cənubi cəbhənin vəziyyəti müşkülləşib, Moskva və Tula təhlükə altına düşmüşlərdir. Qəzetələr fəhlə və köylülərə xitabən intibahnamələr [bəyannamələr] nəşri ilə onları general Denikin ilə "axırıncı mübarizəyə" dəvət edirlər.

**Petroqrad cəbhəsi**

Zinovyev Şurada bəyan etmişdir ki, Petroqrad cəbhəsi vəziyyəti fövqəladə ciddiləşmişdirsə də, şəhərdə başlanmış həyəcana məhəl [yer] buraxmamalıdır. Bütün Petroqrad fəhlələri əsgəri [hərbi] vəziyyətə gətirilirlər.

**Oryolun süqutu**

Bolşevik teleqrafnamələrinin verdiyi xəbərlərə görə, şiddətli müharibələrdən sonra Oryol şəhəri Dabravol qoşunları tərəfindən işğal edilmişdir

**Qafqaziyadan təhlükə**

Saratov - Denikinçi mətbuat Qafqaziyadan təhdid edən təhlükədən həyəcana düşərək yayqaraya başlamışlardır. "Çernomorski mayak" qəzetəsi bu münasibətlə yazır ki, Qafqaziyada yeni hadisat bəklənir. Bu yaxınlarda Zaqafqaziya əhalisi Denikin arxasında qiyam edə bilər və Yaşıl ordu ilə birlikdə dabrovolların axırıncı müvəffəqiyyətlərini məhv ilə onun arxasına zərbə endirə bilərlər.

**Riqa hadisatı**

Paris - "S. D." qəzetəsinin əxbaratına [xəbərlərinə] nəzərən, Dvinada olan latış qitəatı [hərbi hissələri] estonlar tərəfindən kömək bəkləməyi qərara almışlardır. İngiltərə və Fransa donanmasının əksər hissəsi Riqa körfəzinə tərəf hərəkət etmişdir. Riqada mühasireyi-əsgəriyyə idarəsi elan edilmişdir. Polkovnik Bermontun qoşunları geniş cəbhə ilə Riqa körfəzi üzərinə yürüməkdədirlər.

**Litva-Lehistan siyasi əlaqəsinin qırılması**

Kopenhaq - Mətbuat nümayəndəsi bu gün Litva Ticarət və Sənaət naziri professor Şilius tərəfindən qəbul edilmiş və nümayəndənin Litva-Lehistan [Polşa] münasibatına aid sualına nazir cavab vermişdir ki: Lehistan ilə siyasi əlaqəmiz qırılmışdır. Lehlər [polyaklar] Sülh Konfransının qərarına və general Foşun əmrlərinə əməl etmək istəməyirlər. Litvalıların lehlər tərəfindən təqib edilməsi kəsilməyir və çox vaxt təcavüzkaranə bir surət alır. Lehlər litvalıları cəbrən [zorla] əsgərliyə alaraq Qaliç və Ukrayna cəbhələrinə göndərmişlərdir. Səfərbərlik əmrnaməsinə tabe olmaq istəməyənləri həbs edərək qazamata göndərirlər. Lehistan yalnız bir Litva haqqında təcavüzkaranə hərəkətdə bulunmayıb, hər bir dövlət ilə düşmənanə əlaqədədir. Bütün bu dövlətlər kəndi hüdudlarını Lehistan ordusu təərrüzatından [hücumlarından] müdafiə etməlidirlər. Kəndi millətlərinə mənsub olmayanlar haqqında lehlər olmazın təəddiyatı [zülümləri] rəva görürlər.

Müttəfiqlər Lehistanın əsgəriyyət [hərbi] siyasətinə nasıl baxır sualına cavab vermişdir ki: Müttəfiqlərin oralarda qoşunu olmadığına görə, lehlərin istilaçı ordusuna icrayi-nüfuz edəmməyirlər [təsir göstərə bilməyirlər].

**Fransada bolşevik nümayişləri**

Brestdə (Fransa) 12 təşrini-əvvəldə [oktyabrda] soqaqlarda [küçələrdə] qanlı müsadimələr [toqquşmalar] vüqu bulmuşdur. Tətilçilər "Yaşasın Rusiya Şura hökuməti" şüarı və qırmızı bayraqlarla soqaqlarda nümayiş yapmışlardır. Nümayişçilər əsgərləri komandanlarına itaət etməməyə dəvət edirmişlər. Nümayişçilərlə qoşun arasında müsadimə olmuş və hər iki tərəfdən xeyli yaralanmışlardır. Tətil müəyyən bir inqilab mahiyyəti daşıyır.

**Bessarabiyanın romanlaşdırılması**

Romaniya məkatib [məktəblər] müdiriyyəti Bessarabiya ibtidai və ali məktəblərindən Romanya təbəəliyini qəbul etməyən və Romaniya lisanı bilməyən bütün rus müəllimlərini ixrac etmişdir. Onların yerinə moldavanlar təyin edilmişlərdir. Bütün məktəb və müəssisələrdə rus lisanı Romaniya lisanına təbdil edilmişdir [dəyişdirilmişdir]. Bessarabiyanı büsbütün romanlaşdırmaq niyyəti ilə şəhər və soqaqların adları dəxi dəyişdirilir.

**Almaniya mütləqiyyətçiləri**

"Fossişe çaytunq" qəzetəsinin əxbaratına [xəbərlərinə] nəzərən, Vyanada Almaniya ordusu üçün əsgər toplayan bir büro vardır. Büronu idarə edən Müller bəyan etmişdir ki, o, Almaniya mütləqiyyətçi ordusu üçün əsgər toplayır. Toplanan əsgərləri lazımi təzkirə [sənəd] ilə təchiz edərək sərhəddən keçirirlər.

**İspaniyalılar Mərakeşdə**

Madrid - İspaniya qoşunlarının Mərakeşə etdikləri hücumu müvəffəqiyyətlə keçmədədir. Raysuli tərəfdaranı [tərəfdarları] ricət edərək [geri çəkilərək] ispaniyalılar tərəfindən təqib edilməkdədirlər.

## TÜRKİYƏDƏ

**Vilson və Türkiyə**

Amerika rəisi-cümhuru Vilson Türkiyə Sədrəzəminə [Baş nazirinə] bir nota vermişdir. "Tayms" qəzetəsinin yazmasına görə, nota son zamanlarda İzmirdə və Zaqafqaziyada və Şərqi Anadoluda vüqua gələn hadisələrə dairdir. Vilson notasında deyir ki, əgər buradakı əhval böylə davam edəcək olarsa, Türkiyə Vilson prinsiplərinin 12-ci maddəsindən istifadə edəmməyəcəkdir.

Babi-ali Fransa və İngiltərə səfirləri ilə bu məsələ haqqında müdavileyi-əfkar [fikir mübadiləsi] edib demişdir ki, Vilsonun Türkiyəyə verdiyi nota Sülh Konfransının məlumatına istinad etməkdədir. Sülh Konfransı qane olmalıdır ki, Türkiyə Zaqafqaziyada və Şərqi Anadoluda vüqua gələn hadisatdan məsul ola bilməyəcəkdir. Çünki Şərqi Anadoluda Mustafa Kamal paşa Türkiyə hökumətindən daha da qüvvətlidir.

"Tayms" qəzetəsi Türkiyənin verdiyi bu cavabdan bəhs edərək deyir ki, nə

olursa-olsun, son zamanlarda Zaqafqaziyada baş verən hadisələr və əməliyyatlar Türkiyə acentlərinin təsiri ilə olmuşdur. Bundan sonra Mustafa Kamal paşa və yoldaşları və firqəsi, həqiqətən vətənpərvər isələr, Vilsonun şu mənidar [mənalı] və bir az da təhdidamiz olan bəyanatını nəzəri-diqqətə alıb ona görə də hərəkət etməlidirlər.

**Ərəbistanda Hicazilər və vəhhabilər**

"Tan" qəzetəsi 11 eylül tarixli nüsxəsində hicazilər ilə vəhhabilər arasında mövcud olan ixtilafata və vəhhabilərin Şərif Hüseynin hakimiyyəti altına girməyə razı olduqlarına dair yazmış olduğu bir məqaləsində deyir ki:

"Cəzirətül-Ərəbdə [Ərəb yarımadasında] yeni məsələyi-siyasiyyə [siyasi məsələ] vəhhabilərin hicazilər tərəfindən düçari-təhdid olan istiqlalı məsələsi ortaya çıxır. Əcəba, vəhhabilərin bu hərəkəti iddia edildiyi və cümlə türklər tərəfindən tərtib edilmiş olan intriqaların nəticəsi deyilmidir?

Bu gün Türkiyə böylə hərəkətdə bulunmağa müqtədir olammaz.

Hər nə olursa-olsun, qeyri-müslimlər aləmi-islamın dini münaziələrinə [mübahisələrinə] qarışmaqdan kamali-diqqətlə ehtiraz etməlidirlər [çəkinməlidirlər]. İslamın nəzərində pək böyük bir əhəmiyyəti haiz olan [daşıyan] bir çox təfərrüata xristianların ədəmi-vüqufları [məlumatsızlıqları] olan bir çox xətalara və məsələn, vəhhabiləri hicazilərin hakimiyyəti altına soxmağa və nəticədə Ərəbistanda qarğaşalıqlara müncər olacaq [gətirib çıxaracaq] din hökumətlərin təəssüsünə səbəbiyyət verə bilər.

Avropa düvəli-müəzzəməsinin [böyük dövlətlərinin] yeganə hümmət və qeyrəti təbəələrindən olan islamların həccə getmələrini təmin etməkdən ibarət olmalıdır. Buna müvəffəq olmaq üçün Şərif Hüseynin Ərəbistan hökmdarı olmasına və vase [geniş] bir səlahiyyət və qüdrətə malik bulunmasına hacət yoxdur. Şərif Hüseynin məqamati-müqəddəsədə sükun [müqəddəs məqamda oturması] və intizamı təsisinə müqtədir və kəndisinə bu xüsusda ibrazı [göstərilməsi] lazım gələn müzahirətə məzhər [köməyə nail] olması kafidir. Avropanın müzahirəti sırf buna münhəsir qalmalıdır [Avropanın köməyi sırf bununla məhdudlaşmalıdır].

Avropa şərifi-Məkkənin Cəzirətül-Ərəbdə mövcud olan müstəqil ərəb imarətlərini təhti-nüfuz və hakimiyyəti [nüfuzu və hakimiyyəti altına] və Şamda məxdumu [oğlu] Əmir Faysalın idarəsi altına, bütün məmaliki-ərəbiyyəni hakimiyyəti altına almağa çalışacaq bir hökuməti-diniyyə təsis eyləməsinə zəhir olarsa [kömək edərsə], sünnilərə itaət etmək istə[mə]yən məzahibi-müxtəlifeyi-islamiyyəni [müxtəlif müsəlman məzhəblərini] dilgir eyləmiş [incitmiş, dilxor etmiş] olar.

Bu hal aləmi-islamda ixtilafatı mövcib olacaq [ixtilafa səbəb olacaq] və Avropa bunun əksül-əməllərini [əks-təsirini] pək ağır bir surətdə hiss edəcəkdir. Avropa bütün əzəmət və qüdrətinə rəğmən, bütün məfkurələri və ənənələri tətminə və hətta bizzat [şəxsən] kəndisini müdafiəyə qeyri-müqtədir bir islam hökumətini uzun zamanlardan bəri istiqlallarına dörd əllə sarılmış olan müxtəlif islam millətlərinə qəbul etdirəmməz.





**"Böyük" Ermənistan təşkili haqqında**

"Sabah" qəzetəsinin yazdığına görə, doktor Eyşirin təhti-sədarətində [rəhbərliyi altında] olan bir heyətin Amerika hökumətinə və Sülh Konfransına göndərmiş olduğu raportlarda nəticeyi-tədqiqatdan anlaşılmışdır ki, "böyük" bir Ermənistan təşkili qətiyyən mümkün deyildir. Ələlxüsus Vilayati-şərqiyyədə [Şərq vilayətlərində] əksəriyyət türklərdə olduğundan, heç bir vəchlə türkləri ermənilərin təhti-hakimiyyətinə [hakimiyyəti altına] vermək mümkün olmayacaqdır. Ancaq indiki Ermənistan hökumətinə yardım etmək lazım olduğu bildirilmişdir.

## TÜRKÜSTAN ÖVZASI

Türküstan Məclisi-Müəssisanını dəvət edəcək komitənin sədri Mustafa Çokayev mətbuat nümayəndələri ilə etdiyi müsahibədə Xariciyyə İşləri komissarı Çiçerinin bu yaxınlarda Xivə və Buxara əhalisinə xitabən nəşr etdiyi intibahnamənin [vərəqənin, bəyannamənin] nə yolda təsir edəcəyi xüsusunda bəyanatda bulunarkən demişdir:

*"Əlbəttə ki, Xivə və Buxara əhalisi intibahnaməyə inanmayacaq, etibar və etimad etməyəcəkdir. Hətta Buxarada düşmənanə bir surətdə qarşılanacaqdır. Bu intibahnamə Buxara fəhlə və kəndçilərinə, əslində, heç bir şey vəd etməyərək, qırmızı Türküstanın fəhlə və kəndçiləri qüvvələri ilə nəinki özlərini, bəlkə bütün Yaxın və Əqsayi-Şərq [Uzaq Şərq] zəhmətkeşlərini Avropa vəhşilərindən xilas etməyə dəvət edir. Çünki Buxara kəndçiləri «qırmızı Türküstanda olan əmələ və kəndçi hökumətinin qarşılarında olan qüvvə ilə» çox yaxşı aşinadırlar. Mən bunları deyərkən, 1918 sənəsi mart ayında Türküstan Şura hökumətinin Buxaraya hücumunu nəzərimdə tuturam. Buxarada olan Dövlət Bankası nüqudunu [pullarını] müsadirə etmək məqsədilə edilən yürüş, Karmana şəhərinin qarəti və heç bir şeydə müqəssir və günahı olmayan əhalinin qətl edilmələri ilə xitampəzir oldu [nəticələndi]."*

İndilikdə Şura Türküstan ilə Buxara arasında olan əlaqədən bəhs edərək deyir ki:

*"Qırmızı ordu eşelonları Buxara sərhədində Zirə-Bulaq və Çarcu mövqifləri [staniyaları] arasında gəlib keçərkən möhkəm bir surətdə vaqonlarının qapılarını bağlayırlar. Ancaq qatar mövqiflərdə su almaq üçün dayanır. Xivə işləri bir qədər başqa vəziyyətdədir. Doğrudur, orada Şura hökumətinə qarşı vəziyyət bir o qədər yaxşı deyildir. Amma Xivə xanlığı başında duran Cüneyd bitərəflik siyasəti yürütməkdədir. Bu həman Cüneyddir ki, 1916 sənədə yomudlar başında duraraq Xivə xanı ilə müharibə edib onun yaxın əyanlarını qətl etmiş və xanı bir çox güzəştlərə məcbur etmişdi."*

Türküstan övzasına dair Mustafa Çokayev sözünə davam edərək deyir:

*"Keçmişdə söylədiyim kimi, Şura hökuməti müsəlmanlara bir çox güzəştdə bulunur. Məsələn, Səmərqənddə olan Şura hökumətində bir çox müsəlman olduğu kimi, bir çox məsul və mühüm xidmətlər də müsəlmanlar əlindədir: Maarif*

*komissarı – bir tacir sart, Maliyyə komissarı – pambıq taciri bir sart, Xalq Təsərrüfatı komissarı – böyük yağ zavodu sahibi bir sart, Hərbiyyə – bir türk-tatar. Əlbəttə ki, bu xidmətdə olanların çoxu kommunist deyildir. Bu da onların sart qışlaqlarında gördükləri işlərindən aşkardır.*

*Qırmızı orduda bir çox yerli əhali vardır. Bir para şəhərlərdə müsəlman komandası altında məhz müsəlmanlardan ibarət mühafizə əsgərləri vardır. Qırmızı orduda müsəlmanlar özlərinin çoxluqlarına baxmayaraq, Könüllü ordudan özlərinin milli tələblərinə müvafiqət edilməyəcəyinə ümidləri olmadığından, Şura hökuməti əleyhinə qiyam etməyirlər. Türküstanı da öz əllərində saxlamalarına ümid bəsləməyirlər. Şübhəsiz, Türküstanda bolşeviklər tərəfindən Könüllü ordu əleyhinə etdikləri təşviqat və təbliğat səmərəsiz qalmadıqları üçün bir para mahallarda olan müsəlmanları Şura hökumətinə kəskin tələblər pişnihad [təqdim] etmədən saxlayır.*

*Fərqanə vilayətində Şuralar sırf kommunistlərdən ibarət deyildir. Daşkəndə gəlincə, burada idarə işlərində müsəlmanlar əqəliyyət [azlıq] təşkil etmədədirlər."*

Qəzetə müxbirinin Könüllü ordu tərəfdarı olan qəzetələrdə Daşkəndin Orenburq kazakları tərəfindən işğal edilməsi xüsusunda verilmiş olan xəbərlərin doğru olub-olmadığını sorduqda, Çokayev bu xəbərlərin əsl-əsası olmadığını bildirmişdir:

*"Orenburq kazakları heç bir vəchlə Türküstana daxil ola bilməyəcəkdir."*

## CÜMƏ GÜNKÜ MÜHÜM XƏBƏRLƏR

**Kiyevin işğalı**

Bolşevik teleqrafnamələrinin verdiyi əxbarata nəzərən [xəbərlərə görə], 15 təşrini-əvvəldə Kiyev şəhəri Şura qoşunları tərəfindən işğal edilmişdir.

**Məkkə zəvvarı**

Bu sənə Məkkə ziyarəti müvəffəqiyyətlə xitam bulmuşdur. 5 sənədən sonra əvvəlinci dəfə olaraq Mədineyi-münəvvərəyə yol açılmışdır. Eydi-əzha [Qurban bayramı] günü Ərəfatda 70 min zəvvar toplanmışdır.

*("Morninq post")*

**Qahirədə ərzaq böhranı**

"M[orninq] p[ost]" qəzetəsinin yazmasına görə, Qahirəni ərzaq böhranı təhdid etmədədir. Ərzağa sabit qiymət təyin edilməsindən dolayı qəssablar ət kəsmədən imtina edirlər. Buğda yükü ilə vürud etmiş [gəlmiş] gəmilər Yuxarı Misirə övdət etmişlərdir [qayıtmışlar].

**Baltik dövlətləri və Müttəfiqlər**

Reveldən işar edirlər [xəbər verirlər] ki, Müttəfiqlər Baltik dövlətlərinə xəbər vermişlər ki, bolşeviklərlə sülh müzakiratını qət etməlidirlər [dayandırmalıdırlar]. Əks təqdirdə onların istiqlalları Sülh Konfransı tərəfindən təsdiq edilməyəcəkdir.

*("Corcian meyl")*

**Almaniya dəmiryollarının elektrikləşdirilməsi**

Almaniya dəmiryollarını elektrikləşdirmək üçün proje tərtib verilir. Rəsmi olaraq xəbər verirlər ki, bu proje bütün Almaniya dəmiryollarına təşmil [şamil] ediləcəkdir və bu niyyətlə böyük elektrik mövqifləri [stansiyaları] təsis ediləcəkdir və böyləliklə yanacaq və kömürdə xeyli qənaət hasil olacaq və almanların müahidə mövcibincə [sazişə əsasən] Fransa dövlətinə verməyə məhud olduğu [öhdəsinə götürdüyü] kömür təzminatının yüngülləşməsinə də əsər edəcəkdir.

Noskeyə yaxın olan bir zat [şəxs] bu proje haqqında bəyan etmişdir ki, Almaniya dəmiryollarının elektrikləşdirilməsi fəqərəsi [hadisəsi] bizim sülhcuyanə bir siyasət təqib etməmizi isbat etmək üçün gözəl bir bürhan [dəlil] ola bilər. Zira bizim yenidən müharibə etmək fikrimiz olsaydı, böylə bir iqdamatdan [addımdan] kəndimizi saxlardıq. Müharibə zamanı düşmən iki-üç mərkəzi elektrik mövqifini təxrib edərsə, bütün bizim nəqliyyat və iqtisadiyyatımızı bərbad edə bilər.

**Kuban və Denikin**

Beloostrov - "Q. S." qəzetəsinin əxbaratına görə, Kuban Radası Denikin ordusunda olan Kuban dabravollarını geri çağırmağı təhti-qərara almışdır. Kuban oblastı Denikinə qarşı müxalifətkaranə bir vəziyyət almışdır.

**Lehistan və Almaniya ixtilafı**

Moskva - Sileziya üstündə Almaniya ilə Lehistan ixtilafı get-gedə kəskinləşmədədir. [Rüdiger] fon der Qolts ordusu bütün Baltik dövlətləri və həmçinin Lehistan üçün böyük bir təhlükə təşkil etmədədir.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

- Ticarət və Sənaye və Ərzaq Nəzarətinə son zamanlar bir çox zəvat [şəxslər] müraciət edərək, Dağıstanda alınmış yunun hankı şərait üzrə Yalama mövqifindən [stansiyasından] keçirilib məmalikiəcnəbiyyəyə [xarici ölkələrə] aparılacağı haqqında məlumat istəyirlər.

Quba qəzasında böyük yun ehtiyatı olduğundan, dağ yolları ilə Dağıstana aparılıb sonra tranzit şəraiti üzrə gətirilməsi qorxusundan Ticarət Nəzarəti cavab verəmmədiyindən, məsələni Maliyyə Nəzarətinə mühəvvəl etmişdir [tapşırmışdır].

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Təminat Nazirliyi] Vükəla Şurasına [Nazirlər Kabinetinə] müraciətən Lənkəran qəzasında xəsarətdidələrə [zərərçəkənlərə] buraxılmış tikiş materialı üçün Mərkəzi Ev Komitəsinə 486.956 manatın buraxılmasını rica etmişdir.

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti, Ticarət Nəzarəti indində [nəzdində], Göyçay anbarında mövcud mis və başqa qabların Göyçay müfəttişliyinə, oradakı darüleytam [yetimxana] ehtiyacı üçün buraxılması haqqında iqdamatda [təşəbbüsdə] bulunmuşdur.

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinin Qaçqınlar şöbəsi bütün nahiyə müfəttişlərindən bir həftə müddətinədək Ermənistan və Azərbaycan müsəlman qaçqınları və 1917-1918 sənələrində təxrib edilmiş müsəlman köyləri məhəllindəki [yerlərindəki] darüləcəzələr [möhtaclar evi, qocalar evi] və xəstəxanalar haqqında məlumat verilməsini rica etmişdir.

## BAKI BƏLƏDİYYƏ İDARƏSİ

Eşitdiyimizə görə, Bələdiyyə İdarəsi hökumətdən yenə təzədən 10 milyonluq bir qərz [borc] istəmiş və bu məsələ Məclisi-Məbusanda müzakirə olunduqda, məbuslar bəzən bunun əleyhinə və bəzən lehinə danışmışlar. Bu məsələnin lehinə danışan məbusların böyük dəlilləri bu olmuş ki, guya şəhər, küçələri yaxşı süpürüb işıqlandırır və ilaxır.

Bizim nəzərimizcə, Bələdiyyə İdarəsinin vəzifəsi bununla itmama [tamama] yetməyir. Məlumdur ki, bu idarə camaat idarəsidir və camaatın ehtiyacları artıq həmin idarədə həll olunur. Ona görə də lazım gəlir ki, əvvəlinci sırada Bələdiyyə İdarəsini milliləşdirmək ki, daha o biçarə rus dili bilməyən müsəlman arvadları və kişiləri bu odadan o biri odaya qovulmasınlar. Qoy, heç olmasa, o bu qapıdan o qapıya qovlanan qoca arvad və kişilər görsünlər ki, doğrudan da, hökumət onların özünündür və türk dilində də gedib dərdini, sözünü lazım olan yerinə deyə bilsin.

Əgər bir gün işin bir hökumət idarəsinə düşərsə, gedib imdi də həman Nikolaydan vərəsə [miras] qalan şapkalı və kokardlı çinovnikləri görəcəksən. Əgər işin Bələdiyyə İdarəsinə düşərsə, orada da həmçinin köhnə hamam, köhnə tas. Necə ki, Məclisi-Məbusanda bəzi məbuslar söyləmiş, doğrudan da, bələdiyyəyə bu qədər böyük məbləğlər buraxan hökumət gərəkdir ki, həmin idarənin daxili işlərinə də bir qədər nəzarət yetirsin. Bir vaxta ki, bəzi para hökumət idarələrində milliləşmək məsələsi yavaş-yavaş ortaya atılmış və bu yolda bir qədər də iş görülmüşdür, amma nədənsə Bələdiyyə İdarəsində hələ milliləşmək böylə kənarda dursun, hətta deyə bilərik ki, işlər, bir növ, daha da rus səliqəsinə salınmışdır. Buna da səbəb orada şöbə başında əyləşən müdirlərdir. Çünki onlar yatdıqda belə, olur ki, milliləşmək xəyalına düşməyirlər.

Doğrudan da, təəccüb etməli bir işdir. Məsələn, Nikolay zamanında, heç olmasa, Dumanın "Xozyaystvennı" [Təsərrüfat] şöbəsində 5-6 nəfər müsəlman qulluqçuları görərdik. İndi isə, əlhəmdüllah, həman şöbə müdirinin səy və kuşişi [çalışması] ilə həman şöbə müsəlman qulluqçularından təmizlənmiş və onlardan ancaq bir nəfər qalmış ki, o da bu günlərdə oradan qaçasıdır. Bu müdir cənabları öz şöbəsinə öylə adamlar qəbul etmiş ki, əgər onların keçmişdə tutduğu işləri nəzərə alsaq və onlardan birisi ki, keçmişdə Salyanda pristav olduğu halda məscidlərin ağzına peçat [möhür] vurduğunu nəzərə alsaq, o vədə, doğrudan da, bu müdir cənablarının özündən də şübhəyə düşülər.

Bəli, bir ilin ərzi-müddətində Bələdiyyə İdarəsində olan təğyir və təbdil [dəyişikliklər] bunlardan ibarətdir: 4 nəfər şöbə müdirləri, 5-6 nəfər kağız paylayan uşaqlar və bir neçə də "ələkçinin qıl vərəni hesabında" müsəlman qulluqçuları, bir də divarlarda və qapılarda asılan elanlar ki, bilümum [ümumiyyətlə] rusca və ermənicə yazılmış, ancaq bir elanda kim isə barmağını mürəkkəbə batırmış və bu iki kəlməni yazmış: "Şollarski vodoprovod".

Biz həmişə bu şöbə müdirlərindən sual etdikdə ki, cənablar, nə üçün idarənizə





müsəlman qulluqçularını qəbul etməyirsiniz? – bizə böylə cavab verirlər: "Müsəlmanlar iş apara bilməyirlər."

Amma əgər doğrusunu söyləsək, bu müdir cənablarının müsəlman qulluqçusu qəbul etməyə zərrəcə meyilləri yoxdur. O gözəl rus xanımları ki, Dumanın hər bir şöbəsində azı 10-15 nəfər əyləşiblər və işləri də həmişə bütün günü ancaq qəzetə və roman oxumaq və çox vaxtı koridorda hərəsi əlində bir parça kağız (guya ki, iş dalınca gedir) gələn-keçənlə söhbətdədir; dediyimizi sübut üçün bu qədər kifayətdir ki, əgər gündə beş dəfə Dumaya getsək, hər dəfə də bu işlərə rast gələcəyik. Biz bilməyiriz ki, nə vaxtadək bu fəqir millətin qəpik-quruşlarını yığıb bu müftəxorların ciblərinə dolduracaqlar ki, bunlar da "darımı yeyib üstümə xoruzlanır" fəhvasınca [mənasına uyğun olaraq] bu müftəxorluğa da kifayət etməyib, gündə bir dəfə Duma koridorunda mitinqlər düzəldib, Azərbaycan hökumətini müttəhim edəcəklər ki, guya hökumət Dağıstana kömək edir və lazımdır ki, Denikin Dağıstanı dağıdıb məhv etdikdə Azərbaycan hökumətinə də bir qulaqburması versin.

Bu qədər kifayətdir. Xətmi-kəlam olaraq deyirik ki, Şəhər Bələdiyyə İdarəsini tezliklə bilkülliyyə milliləşdirmək mümkündür. Çünki əldə etdiyimiz məlumata görə, hər bir şöbənin işini çoxu beş nəfər qulluqçu ifa edə bilər və bu beş nəfəri də həmişə müsəlmanlardan tapmaq mümkündür. Əgər bir qədər bu idarəyə hökumətimiz diqqət yetirsə və ikinci, Bələdiyyə İdarəsi şöbəsi müdirlərində bir azacıq milli hiss olmuş olarsa, məqsədə ərişilər. Bu iki şey tapılarsa, az bir müddətdə Bələdiyyə İdarəsi milliləşər və camaatımız da öz hökumətini görər və tanıyar.

*Ayn.zadə*

## BƏNZƏRDİ

Bayılırkən gözlərindən, qaşından,
Seviyorkən onu pək gənc yaşından,
Məni çaldı ürəyimin başından,
Bir ilan ki, göyərçinə bənzərdi.

İtirdim hədəfi, qırıldı yayım,
Bu şikardan mənim yoxmudur payım,
Başqa tanrı göstər, ona tapayım,
Sənin eşqin çünki dinə bənzərdi.

Keçirdim dərd ilə çox qışı, yazı,
Həsrətlə bəklərkən o sərvinazı,
Uzatdı əlimə qırılmış sazı,
Çaldım... nəğməm bir ayinə bənzərdi.

Örərdin saçını bir qəzəl kimi,
Çıxardın qarşıma bir gözəl kimi,
Əski şair yazmış bir məsəl kimi
Baxışların bir şahinə bənzərdi.

Bilməm ki, şəfəqsən, ruhsan, xülyasan,
Həqiqətmi parlar, yoxsa röyasan,
Saçında çiçəklər, sən Ofelyasan,
Onun saçı səninkinə bənzərdi.

*Hamlet*

## BAKI XƏBƏRLƏRİ

**Bələdiyyə İdarəsində**

Bələdiyyə İdarəsi Ticarət və Sənaye və Ərzaq Nəzarətinə müraciətən məlum

etmişdir ki, Bələdiyyə İdarəsi kəndi ehtiyacatından ötrü Lənkəran və Muğanda ələfiyyat [yem] almaqda iştirak etmək istəyir. Bu sənə də Bələdiyyə İdarəsinə 18 min pud arpa, 14 min pud saman lazım olacaqdır. Həman hesaba olaraq Bələdiyyə İdarəsi hal-hazırda 100 min manat təklif edir. Mabaqisini [qalanını] isə Bələdiyyə İdarəsi hökumət nəzdində borc almaq təşəbbüsatına girişəcəkdir.

**Bulvarın təmizliyi**

Bələdiyyə İdarəsi Bakı polismeysterinə məlum etmişdir ki, Bakı bulvarında bir çox çocuqlar günəbaxan toxumu satırlar ki, gəziçilər tərəfindən bulvarın keçidləri məzbələ [zibillik] halına gətirilir. Digər tərəfdən, əhali çiçək və cavan ağacları qoparıb sındırırlar. Şəhər xidmətçiləri polis müavinəti olmazsa heç şey yapammayırlar. Bələdiyyə İdarəsi rica etmişdir ki, polis nəfəratına [nəfərlərinə] bu babda lazımi düsturüləməl [təlimat] verilmək haqqında tədabir ittixaz edilsin [tədbirlər görülsün].

**Şəhər xidmətçiləri**

Şəhər xidmətçilərinin qanunsuz çıxarılmaq və qəbulu işlərinə baxmaq üçün Bələdiyyə İdarəsi tərəfindən xüsusi bir komisyon təşkil edilmişdir. Həman komisyona Bələdiyyə qlasnılarından Perçinin, Qarabəyov və Şərifzadə intixab edilmişlərdir [seçilmişlər].

**Şərifovların işi**

Neçə vaxt bundan əvvəl, Hərbiyyə nazirinin binagüzarlığı [sərəncamı] ilə orduya mütəəlliq [məxsus] ləvazimatı kəndi nəfinə [xeyinə] satmaqda müttəhim və bundan dolayı tövqif [saxlanılmış] və həbs edilmiş olan süvari alay zabitanından Ağasəlim və Ağakərim Şərifovların işlərinə oktyabrın 26-da hərbi nahiyə məhkəməsi tərəfindən baxılacaqdır. Bir çox şahidlər vardır. Müqəssirləri dava vəkilləri Mutuşev ilə Zelenkoviç müdafiə edəcəklərdir. Müddəiyi-ümumi [prokuror] vəzifəsini knyaz Murtuza bəy Palavandov ifa edəcəkdir.

**Bakı Mühərrir və Ədiblər İttifaqının Məclisi-Müəssisanı**

Yekşənbə [bazar] günü təşrini-əvvəlin 19-nda axşam saat 6-da Bələdiyyə İdarəsi binasında Bakı mühərrir və ədiblərinin Məclisi-Müəssisanı [Təsisçilər Məclisi] dəvət olunur.

1) Məhəlli [yerli] qəzetələrdə daimi surətdə və xətt hesabı yazmaqla çalışan mühərrirlər;

2) Mətbuata mənsub olduğu məhəlli mühərrirlərin birisi tərəfindən təsdiq edilmiş olan başqa mühərrir və ədiblər iclasa dəvət olunurlar.

Məsaili-yövmiyyə [gündəlik məsələlər]:

1) Təşkilat Komisyonu tərəfindən tərtib edilən Nizamnamə projesinin təsdiqi;

2) İdarə və Təftiş Komisyonu intixabı [seçilməsi].

Xüsusi dəvətnamələr göndərilməyəcək, iclas hazirunun [iştirakçıların] miqdarına baxmayaraq qanuni hesab olunacaqdır.

*Təşkilat Komisyonu*

**Musa Nağıyev mirası ətrafında**

Məşhur Bakı milyonerlərindən Musa Nağıyev özünün vəfatından sonra 1914-





cü sənə qiyməti ilə 70 milyona, bu indiki qiymətlə 5 milyarda baliğ [çatan] bir miras buraxmışdır.

Mərhumun əsl vərəsəsi olan öz oğlu vəfat etmiş olduğundan, miras yerdə qalan vərəsələrinə, yəni nəvəsinə, arvadına, yaxın və uzaq qövmlərinə keçməlidir. Mirasın ondan bir (1/10) hissəsini, mərhumun şiəməzhəb olduğu üçün İdareyi-Ruhaniyyə iddia etməkdədir.

Musa Nağıyev vərəsələri arasında böylə iddia böyük bir təşvişə səbəb olmuşdur. Onlar bu barədə mahal məhkəməsinə bir ərizə verərək böylə iddianın haqsız olduğunu sübut etmək istəyirlər. Öz etirazlarında Musa Nağıyevin şiəməzhəb olmadığını iddia edərək, Hacı Zeynalabdin Tağıyev işinə baxıldıqda Qurani-Kərimə and içmədən imtina edib, bəhai olduğu üçün ancaq Bəha kitabına qəsəm yad edə [and içə] biləcəyini söyləməsini göstərirlər. Bəha qanununa görə, vəfatından sonra qalan miras vərəsələri arasında, yəni nəvə, arvad, yaxın və uzaq qövmləri və xalq maarifinə bissəviyyə təqsim edilməlidir [bərabər bölünməlidir].

Mərhumun vərəsələrindən biri arvadı Liza xanım Cankarova imiş.

Mahal məhkəməsi ki, qərarı ona həvalə edilmişdir, bu işdə çox üsrət [çətinlik] çəkməkdədir.

**Birjada**

Kerenski minlik 1.010-1.030 manata, 250-lik kəndi qiymətindən 2 faiz və xırda 20 faiz əskikdir. Nikolay 500-lüyü 800-1.500 manata qədər, 100-lüyü 200-320 manata qədər və xırdası 50-80 manata qədərdir. Osmanlı kağız lirəsi 220 manat və Tiflis parası min manata 15 manat fəzlədir. Osmanlı altun lirəsi 780 manat, qızıl onluq 860 manat, imperial 650 manat və Otriş [Avstriya] qızılı 1.900 manatdır. Gümüş manat 74 manat və xırda gümüş para 30 manatdır.

## FİRQƏLƏR VƏ CƏMİYYƏTLƏR

Ərzurum əhalisindən Gülxanım Mövlud qızı və Cizim Kamil qızı 8-ci uçastok pristavına şikayət etdikdə, Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"a müraciət etmək üçün göndərilmişdir. Bunlar Ərzurumdan fərar edib Gəncəyə gəlmişlərdir. Orada bunlardan biri Süleyman Mənsur oğluna və digəri isə borçalılı Murad Əsgərova ərə getmişlərdir. Ərləri bunları kəndisi ilə Bakıya gətirmişlər. İndi isə bunlara əziyyət etdiklərinə cəhət, qadınlar şikayət edirlər. "Müsavat" isə qadınları Məşixət [Şeyxülislamlıq] İdarəsinə müraciət edilməsi üçün Bakı Cəmiyyəti-Xeyriyyəsinə göndərmişdir.

**Ağ şəhərdə**

Ağ şəhərdə Hüseynov və Həsənov şirkəti mədənində işləyən Nurulla Məhəmməd oğlu nam [adlı] fəhlə "Müsavat"ın Müsalihə və Mürafiə [Barışıq və Məhkəmə] şöbəsinə müraciətlə şikayət etmişdir ki, məzkuru [adı çəkilən şəxsi] biqanun olaraq mədəndən ixrac edirlər. Şöbə isə bu xüsusda təşəbbüsatda bulunur.

**Binəqədidə**

Binəqədidə Hüseynqulu Quliyev mədənində işləyən Əlibəy Abbas oğlu nam "Müsavat"ın Müsalihə və Mürafiə şöbəsinə şikayət etmişdir ki, məzkurun 45

günlük məvacibini mədən sahibi vermək istəməyir. Bu xüsusda şöbə kağız vasitəsilə fabrika müfəttişinə müraciət etmişdir.

**Fəhlə Klubunda**

Təşrini-əvvəlin 16-da Fəhlələr Klubunda Mirfəttah Musəvi və Haşım Əliyevin 40 günlük təziyə məclisinə Mirzəbala Məhəmmədzadə və Hüseyn Müzəffərov "Müsavat" tərəfindən göndərilmişdir. Məclisdə Mirzəbala "Müsavat" tərəfindən bir nitq söyləmişdir.

**Komisyon sədri**

Təşrini-əvvəlin [oktyabrın] 16-da "Müsavat"ın Bakı komitəsi iclasında firqənin Müsalihə və Mürafiə şöbəsinə Hüseyn Müzəffərov sədr intixab olunmuşdur [seçilmişdir].

**İclas**

Seşənbə [çərşənbə axşamı] günü təşrini-əvvəlin 21-də Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın Bakı komitəsi iclası təyin edilmişdir.

**İranlıların maarif cəmiyyətlərində**

Cümə günü təşrini-əvvəlin 17-də səhər saat 10-da Məhəmmədbağır Abbaszadənin sədarəti ilə "Cəmiyyəti-Maarifi-İraniyan"ın ümumi iclası vaqe olaraq aşağıdakı məsələlər müzakirə edilmişdir:

1) Əski heyəti-idarənin izahatı;
2) Yeni heyəti-idarə intixabı;
3) Məsaili-cariyyə [cari məsələlər].

Bədəhu [sonra], sabiq idarə rəisi Əjdər Əlizadə cəmiyyətin tarixi-təşkili və çalışması haqqında bir qədər məlumat verərək, 19 şaban 1337-də 40-50 nəfərin xülya təşəbbüsü ilə bir cəmiyyət təsis edərək, o vaxtdan bəri nə işlər gördüyü haqqında izahat verir.

Nitqinin axırında bir qaç gün əvvəl məktəb üçün bir bina alınması münasibətilə hazirunu [orada olanları] təbrik edib, bu yeni cəmiyyətin mədaxil və məxarici haqqında bir cədvəl göstərir. Ümum mədaxil 33 min 402 manat 50 qəpik, məxaric 22 min 562 manat 50 qəpik.

Bundan başqa, gecə dərsi üçün 3 min 55 manat və bir nəfər şagird üçün (Həsən Ziya) əl borcu 2 min manat. Deməli, hal-hazırda cəmiyyətin 15 min 895 manat pulu var.

Əlavə, Təftiş Komisyonu bu 6 ayın zərfində bir dəfə də olsa heyəti-idarəni təftiş etmədiyini də sədr iclasa məlum etdi və həmçinin idarə 15 eylüldən bir gecə kursu açıb, orada 250 nəfərdən fəzlə şagird olduğunu, bir dram şöbəsi də təşkil edildiyini bildirir.

Bundan başqa, idarənin bir ünas [qızlar] məktəbi açmaq fikri də varmış.

Sədr izahatını tamam etdikdən sonra, katib də əski idarə haqqında bəzi məlumat verdikdən sonra, yeni idarə intixabına şüru edildi [başlandı]. Əksəriyyətirəylə [səs çoxluğuyla] 20 nəfərlik bir heyəti-idarə, bunlara 6 nəfər namizəd, 3 nəfər Təftiş Komisyonu və bunlara 2 nəfər namizəd intixab olundu. Axırda cəmiyyətin məramnaməsinin 2 fəslinin dəyişməsi ilə iclasa xitam verildi.

**AZƏRBAYCANDA**

**Qazax müəllimlər kursu**

Bu kurs ağustosun 3-dən etibarən Qazaxın ikisinifli zükur [oğlanlar] məktəbində açılmışdır. Rəsmi surətdə kursa 50 nəfər müdavim və müdavimə qəbul olunmuşdur. Əlavə yer olduğundan, könüllü sifəti ilə daxil olanlar da vardır ki, bunlarla cümləsinin ədədi 60-a baliğ olur [çatır]. Məlumat cəhətincə, bunlar dəxi heyəti-təlimiyyə tərəfindən ikiyə təqsim edilmişlərdir [ayrılmışlar]. Hal-hazırda müəllim və müəllimə olanlar bir sinifdə, olmayanlar isə ikinci bir sinifdə oxumağa məşğul olurlardı.

Qazax kursunda ciddi bir fəaliyyət olub, az zaman zərfində davam edənlərə artıq məlumat verilmişdir. Bu isə maarif uğrunda yorulmadan çalışan müqtədir müəllimlərimizdən Firudin bəy Köçərli həzrətləri ilə Maarif müfəttişi Nəsib ağa Qiyasbəyov cənablarının son dərəcə çalışmaları sayəsində meydana gəlmişdir.

Kursu dinləyən gənclərdən 20 nəfər müəllim və müəlliməliyə kəsbi-ləyaqət qazananlar olmuşdur. Deməl, sevgili türk yavrularını ümidi-istiqbala [gələcəyə] qarşı hazırlayan, bu müqəddəs vəzifə yolunda nə kimi məslək yürüdəcəkləri şimdidən simalarında oxunan gənclər bu kursun məhsulu oldu.

Əvət, mühazirəçilər tərəfindən oxunan mühazirələrə, müdavim və müdavimələrin vermiş olduqları nümunəlik dərslərə sentyabrın axırıncı günü nəhayət verildi.

Oktyabrın birində, sabahleyin saat 10 radələrində mühazirəçilərlə müdavim və müdavimələrin cümləsi kursun birinci sinif idarəsinə cəm oldular. Kursa davam edənlərdən Molla Məhəmməd Əfəndizadə ilə Məşhədi Məhəmmədəli Axundzadə həzrətləri Quran oxuyub iclasda bulunanları alqışladılar.

Bə'd [sonra], Firudin bəy Köçərli həzrətləri dövri-istibdadda islamların maarif cəhətincə nə dərəcədə qaranlıq guşələrdə qalmalarını və hal-hazırda isə o mənhus zülmət pərdəsi ortadan qaldırılıb, çox çəkmədən maarif ziyasının bütün afaqı [üfüqləri] işıqlandıracağını qayət yanqılı bir lisan ilə bəyan edir. Artıq şövq, həvəslə gündə 7 saat çalışıb işləyən müdavim və müdavimələrdən razılıq etməklə bərabər, kəndilərinin dəxi mümkün qədəri lazımi məlumat verməkdən geri durmadıqlarını söyləyirlər. *(Sürəkli alqış)*

Maarif müfəttişi Qiyasbəyov həzrətləri mühazirəçilərdən pək ziyadə məmnun qaldığını, kursu dinləyənlərə az bir vaxtda artıq məlumat verdiklərini zikr edərək, başçıları olan Firudin bəyin ismini söyləməklə iclas tərəfindən alqışlanmalarını təklif edir. Firudin bəy isə "Müfəttiş əfəndi bu yolda məndən artıq çalışıb işləmişdir" buyurur. *(Gurultulu alqış sədası yüksəlir.)*

Söz kursun hər iki şöbəsində türkcə lisan mühazirəçisi Əziz Musazadəyə verilir. Müşarileyh [adı çəkilən şəxs] haziruna qarşı aşağıdakı nitqi söyləyir:

*"Yaşamaq üçün hankı bir millət olursa-olsun, maddi və mənəvi qüvvəyə malik olması lazımdır. Bir millətin maddi qüvvəsi onun ləvazimati-hərbiyyəsindən, sağlam vücudlu əsgərindən, daha doğrusu hər dürlü varidatından ibarətdir. Maddi qüvvəni ruhlandıracaq, canlandıracaq bir şey varsa, o da o millətin daxilini islah edərək əfkarını tənvir edəcək [fikirlərini işıqlandıracaq] elm və mərifətdən ibarətdir. Əfəndilər, tarixlər bunu isbat edir ki, elm-maarifi tərk edib də*

*yalnız maddi işlərlə uğraşan bir hökumət artıq davam etməyərək, az zaman zərfində başqalarının məhkumiyyət boyunduruğunda inləyib qalmış, yaxud çox çəkmədən münqəriz [məhv] olmuşdur. Gənc Azərbaycan kəndi yaşaması, amal və arzusuna çatması üçün elm-maarifin tərəqqisinə əsas ittixaz [qəbul] etmişdir və bu fikrə nail olmaq üçün bir çox yerlərdə böylə kurslar açıb, həqiqi müəllim və müəllimələr yetişdirməyə çalışır.*

*Əfəndilər! Millətlərin müqəddəratı gənc fikirli müəllimlərin yədi-iqtidarındadır [güclü əllərindədir], demişlər. Bir milləti yaşadacaq, varlığını başqalarına sübut etdirəcək siz müəllimlərsiniz! (Alqış)*

*Azərbaycan Hökuməti Maarif Nəzarəti tərəfindən açılmış üsuli-təlim və tərbiyə kurslarında nəzəri-diqqəti cəlb edəcək bir şey vardır. O da Gəncə ilə Qazax kurslarında qadınlarla erkəklərin bir sırada oturub dərs oxumalarıdır. Mən burada Əbdülhaq Hamidin qadınlıq xüsusunda söyləmiş olduğu bir cümləsini xatırlayır[am]. Hamid bəy deyir:*

*«Qadınsız bir cəmiyyət cəmiyyəti-eytama [yetimlər cəmiyyətinə] bənzər ki, səzavari-mərhəmətdir [mərhəmətə layiqdir, acınacaq haldadır].»*

*Həqiqətən, bir cəmiyyətdə, bir ictimada qadın olmazsa, orada dirilik, orada həyat belə yox kimidir. Ümidvarız ki, qadınlar da həyati-ictimaiyyəyə iştirak edərək maarif uğrunda işləyəcəkdirlər. Qadınların şu təşəbbüslərini təbrik edərək, istiqbalda gənc Azərbaycan üçün sağlam vücudlu, parlaq fikirli əsgər yetişdirmələrini Cənabi-Haqdan niyaz edəriz.”*

Bundan sonra Qazax Darülmüəllimin [Müəllimlər Seminariyası] müəllimlərindən Yusif Qasımov müəllimlik vəzifəsi, Məclisi-Məbusan üzvlərindən Hacı Kərim [Sanılı] hökumətin maarif uğrunda çalışması, xanım əfəndilərdən Şirin xanım Qiyasbəyova ilə Badisəba xanım Köçərli qadınların ictimai işlərə iştirak edib çalışmalarına dair birər nitq irad etmişlərdir [söyləmişlər].

Nəhayət, iclas qapanaraq ümum müdavim və müdavimələr ikinci bir odada hazırlanmış yemək süfrəsi başına oturarlar. Bir saat sonra hər kəsdə bir ruh yüksəkliyi, bir təbəssüm çöhrəsi olduğu halda yek-digərləri [bir-birləri] ilə görüşüb ayrılırlar.

*[Əziz] Musazadə*

## GÜRCÜSTANDA

### Gürcü müzəxanasının təmiri

Gürcü müzəxanasının [muzeyinin] təmiri ehtiyacından ötrü gürcü hökuməti tərəfindən 5 milyon 600 min manat buraxılmışdır.

### Ermənistan Maliyyə nazirinin Tiflisə gəlməsi

Bu gün Ermənistanın Maliyyə naziri Araratyan Tiflisə varid olacaqdır [gələcəkdir].

### Qatara hücum

Ayın 15-dən Gürcü Teleqraf Acentəliyinə teleqrafla xəbər verilir:

Bu gün saat 19:50 dəqiqədə qatarı qarət qəsdi ilə naməlum əşxasi-müzirrə [zərərli şəxslər] tərəfindən 39-cu çağırımda dəmiryol xətti xarab edilmişdir. 8 nömrəli sürət qatarı toxunmuşdur. Parovoz ilə bir yük və üçklasnı vaqon yoldan çıxmış və yüngül surətdə zədələnmişdirlər. Dəmiryolu 50 sajın tulunda [uzunluğunda] təxrib edilmişdir. Vaqonda bulunan bədəfkarlardan [cinayətkarlardan] Axvelediyani və Salukvadze familyalarında ikisi qətl edilmişdir. Sərnişinlərdən zərərdidə olanlar yoxdur.

### General Milnin Batuma vürudu

Zaqafqaziyada İngiltərə qoşunlarının sabiq Baş komandanı general Miln Batuma varid olmuşdur [gəlmişdir].

### İctima

Zaqafqaziya kooperativ nümayəndələrinin Tiflisdə iniqad etmiş ictiması [baş tutmuş yığıncağı] öz işlərini qurtarıb bağlanmışdır.

**Xüsusi müsəlman təvəllüdxanası Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Doktor Əliheydər Allahverdiyev**

Naxoşları qəbul etməyə başlamışdır. Hər gün səhər saat 8-dən 9-adək, axşam saat 4-dən 7-yədək. İçəri şəhər Bolşoy Minaretski küçə, nömrə 1. Bağın qarşısında. Telefon nömrə 36-21.

*9051*

**Xəzər dənizində posta, sərnişin və yük gəmilərinin hərəkatı**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 5-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk-Quryev və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Lənkəran-Astara*

17-ci körpüdən düşənbə, səşənbə və şənbə günü saat 4-də.

*Bakı-Petrovsk*

15, 24 və 25-ci körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 4-də.

*T-178*

**Doktor M. İ. Lurye**

Əmrazi-zöhrəviyyə və daxili naxoşluqları qəbul edir. 914 və 606 müalicəsi. Qəbul edir hər gün səhər saat 8-1-ədək; axşam saat 4-7-yədək. Ünvan: Vorontsovski küçə, nömrə 45, Bandarnının küncündə, yolu Bandarnıdan, nömrə 8, 3-cü mərtəbə. Telefon: 17-06 və 52-36.

*7406*

**Berlin Darülfünunu doktoru N. Melkumyan[s]**

Daxili, zöhrəvi, sifilis, “606” və “914” müalicələrini qəbul edir hər gün səhər saat 8-dən 12-yədək, axşam saat 4-dən 7-yədək.

Ünvan: Voronsovski küçə, nömrə 9-11. Kolyubakinski küçənin küncündə. Telefon nömrə 34-34.

**Diş həkimi**
**R. M. Altman**

Gəlib və qəbul edir naxoşları gündüz saat 8 - 2-yədək, axşam saat 4 - 7-yədək. Müsəlman xanımları üçün əlahiddə qəbul olunan otaq. Adres: Şamaxinka, ev nömrə 20. Aptekin qarşısında.

*71141*

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqları. Qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Elektrik müalicəsi, 606 və 914 müalicəsi və qeyriləri.

Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28 və 93.

*4051*

**Diş həkimi**
**B. L. Levin**

Gəlib naxoşları qəbul etməyə başlamışdır. Dişləri ağrısız çəkir. Kabinədə diş çıxığı laboratoriyası vardır. Qızıl ənglər, qızıl köklər, kauçuk işləri. Qəbul edir səhər saat 9-dan 1-ə dək, axşam saat 4-dən 8-ə dək. Adres: Sisyanovski, nömrə 7, Qubernskinin küncündə.

*9090*

**Diş həkimi**
**A. A. Mirkin**

Dişlərə müalicə olunub və doldurulur. Kauçuk və qızıl üzərində süni dişlər qayırılır. Dişlərin ağrısız çəkilməsi. Qəbul olunur: gündüzlər 9-dan 2-yədək; axşamlar 4-dən 7-yədək. Ünvan: Gimnaziçeski küçə, nömrə 164.

*11426*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişlərin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək.

Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*10218*

**Diş həkimi S. M. Hamburq**

Təzə işlər, qızıl, kauçuk, platina üzərində dişlər qayırılır. Qəbul olunur saat 9-dan 2-yədək, 4-dən 6-yadək. Nikolayevski caddə 21, Parlaman qarşısında. Telefon 5-96.

*9056*

**Professor Buyneviçin**
**müsəkkər [sakitləşdirici] kabinetinin**
**sabiq assistenti**
**Doktor Q. Musaelyans**

Ürək, mədə, bağırsaq və qeyri daxiliyyə naxoşluqları qəbul edir səhərlər 9-dan 12-yədək, axşamlar 5-dən 7-yədək. Ünvan: Karantinni və Bolşoy Morskoy küçələrin küncündə (Telefonnı küçənin başında). Telefon: 40-22.

*11446*

**Diş həkimi**
**E. S. Karşteynbaum**

Maddi cəhətdən zəiflər üçün xüsusi güzəştdə bulunur. Diş çıxartmaq ağrı ilə 25 manat, diş çıxartmaq ağrısız 50 manat. Müalicə və doldurması 80 manatdan 100-ə kimi. Məsləhət 15 manat.

Ünvan: Quba meydanı yanında Sisianovski küçə nömrə 41, İsrafilovun evində. Telefon: 22-57.

*11449*

**Təbib Əmir bəy Aslanov**

Qəbul edir naxoşları (daxiliyyə və cildiyyə) axşam saat 4-dən 6-yadək. Adres: Ofiserski küçədə (Nikolayevski küçənin küncündə) nömrə 6. Telefon 41-14.

*11430*





**Diş müalicəxanası**
**D. İ. Zeylidzon**

Xüsusi qızıl və platina işləri. Kötük və körpülər və farforlar. Dişlərin ağrısız çəkilməsi. Qəbul olunur məhzən növbətə yazılmaqla səhərlər saat 9-dan 2-yədək, axşamlar saat 5-dən 7-yədək. Ünvan: Malakanski küçə, ev nömrə 1. Telefon nömrə 19-55.

*11442*

**Gedirəm**

Səşənbə günü oktyabrın 21-ndə Petrovsk yolu ilə bu şəhərlərə: Qroznıya, Vladiqafqaza, Yekaterinoslava, Poltavaya, Kiyevə, həm məktublar Odessaya və qeyri şəhərlərə və qayıdacağam yenə də Bakıya. Məktub göndərənlərdən təvəqqe edirəm tezliklə hazır etsinlər.

Adres: Tarqovı küçə, ev nömrə 24, Asilovun odası. Telefon 48-86. Səhərlər saat 9-dan 11-ədək və axşamlar saat 5-dən 8-in yarısınadək.

*11462*

**Bakı Darülfünunu**

Elan edir ki, Darülfünunun Ali Tibbiyyə məktəbinə oktyabrın 20-dən etibarən ərizələr qəbul edilməyəcəkdir.

*Darülfünun rektorunun vəzifəsini*
*ifa edən professor: A. M. Levin*
*T-288*

**Elan**

Ticarət, Sənaye və Ərzaq Nəzarəti təkrarən ümum əhaliyə məlum edir ki, həmin 28 iyul ayında verdiyi qərardadı mövcibincə [əsasında], Azərbaycan Cümhuriyyətində əcnəbi məmləkətlərə mal aparmaqdan ötrü xahiş edənlərə icazənamələr verilir və bunların qeyri kəslərdən pul ilə alınmasına heç bir lüzumu yoxdur. Ondan əlavə, icazənamələrdə qeyd olunan kimi, bu icazənamələrin qeyri şəxslərə də verməyi qadağandır.

Nəzarət bununla elan edir ki, hərgah Nəzarət tərəfindən verilən icazənamələr – ki mal göndərmək üçün göstəriləcək Dəmiryol İdarəsinə, tamojnaya və istasyon naçalnikinə – satılsa və ya qeyri şəxslərə verilsə, Nəzarət tərəfindən puç olunacaqdır, necə ki, həmin sentyabrın 20-ndə Əziz bəy Sultanova 9112 nömrəli icazənamənin satılmağına görə, Nəzarət puç etdi.

*Ticarət, Sənaye və Ərzaq naziri:*
*A. Əminov.*
*İdarə müdiri: Makinski.*
*T-284*

***Müdir:***
***Hacıbəyli Üzeyir***

## QEYD VƏ ŞƏRHLƏR

### İstiqlal müdafiəsi üçün

səh. 331. "əlaci-vaqeə piş əz vüqu bayəd kərd": "hadisənin əlacını hadisə baş verməzdən öncə etmək lazımdır. (farsca)

### Məclisi-Müəssisan Seçkiləri Haqqında Qanun

səh. 332. "Məclisi-Müəssisan Seçkiləri Haqqında Qanun": qəzetdə bu başlığın yerinə səhvən "Felyeton" getmişdir.

### Sülh ətrafında

səh.337. "Şandun": Çinin şərqində yarımada və əyalət. Şandun əyaləti XIX əsrdə Almaniyanın maraq dairəsinə daxil olmuşdu.

### Türkiyədə

səh.339. "Babi-ali" (hərfən "uca qapı"): Osmanlı dövlətində Sədrəzəmin (Baş nazirin) sarayına verilən ad; beynəlxalq münasibətlərdə "Osmanlı hökuməti" mənasında işlədilirdi.

səh. 340. "İslamın nəzərində pək böyük bir əhəmiyyəti...": bu cümlə qüsurludur; qəzetdə belə getmişdir.

### Türküstan övzası

səh. 341. "Yomudlar" (yaxud Yomutlar): Türkmənlərin əsas qollarından biri.

səh. 342. "Sart, sartlar": Türküstanda oturaq həyat tərzi yaşayan uyqur və özbəklərə köçəri əhali tərəfindən verilən ad.

### Cümə günkü mühüm xəbərlər

səh. 342. "Morninq post" [The Morning Post]: Londonda 1772-1937-ci illərdə çap olunan gündəlik qəzet.

"Revel": İndiki Estoniyanın paytaxtı Tallin şəhərinin köhnə adı.

"Corcian meyl" [The Georgian mail]: Tiflisdə ingilis dilində nəşr edilmiş qəzet.

### Bakı Bələdiyyə İdarəsi

səh. 344. "ələkçinin qıl verəni": qəzetdə "ələkçinin" yerinə "əkinçinin" getmişdir.

### Bənzərdi

səh. 345. "Ofelya": Şekspirin "Hamlet" faciəsinin qəhrəmanlarından biri.

### Firqələr və cəmiyyətlər

səh. 348. "19 şaban 1337": burada tarix hicri təqvimlə verilmişdir; miladi təqvimlə 20 may 1919-cu ilə uyğundur.





**Bazar ertəsi, 20 oktyabr 1919-cu il, nömrə 300**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Düşənbə, 25 məhərrəmül-haram sənə 1338. 20 təşrini-əvvəl 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 2 manat 50 q.**

**Abunə şəraiti: Qeyri şəhərlər üçün 1 aylığı 70 rublə, 2 aylığı 130 rublə, 3 aylığı 180 rublə. Bakı üçün 1 aylığı 60 rublə, 2 aylığı 110 rublə, 3 aylığı 150 rublə. Abunə şəraiti ancaq həmin sənə yanvar ayının 1-nədək heasb olunur.**

**Elan fiatı: birinci səhifədə sətri 8 rublə, axırıncı səhifədə sətri 6 rublə, itən şeylər və yer axtaranlar üçün 4 rublə axırıncı səhifədə, 6 rublə birinci səhifədə.**

### ELAN

Hökumət Müfəttişliyi naziri həzrətlərinin 12 həmin oktyabr 1438 nömrə təliqəsinə binaən [rəsmi məktubuna əsasən], bu gündən etibarən Cümhuriyyətimiz daxilində olan ümum gömrükxanaların və əvvəl mərhələdə Ağstafa gömrükxanasının təftişinə şüru etdim [başladım].

Ümumdan kamali-ehtiramla rica və təmənna edirəm ki, məzkur [deyilən] gömrükxanaya əşya və malların müsadirəsi və hakəza [habelə] qeyri biqanunluqlar barədə olan şikayətlərini Hökumət Müfəttişliyi Nəzarətinə (dəniz kənarı Mirbabayevin evləri) kitabətən [yazılı] və yaxud və ya şifahən Ağstafa istasyonunda məlum və ixbar etsinlər [xəbər versinlər].

*Dövlət Müfəttişliyi nazirinin xüsusi əmrlər məmuru: Məcnunbəyov.*

*T-290*

### SİRK "MODERN"

Düşənbə günü oktyabrın 20-ndə 1919-cu ildə məşhur sportsmen Pyotr Nikolayeviç Yelizarov tərəfindən mükəmməl surətdə təşkil edilmiş Fransa güləş mübarizəsinin mabədi.

Bu gün 3 cift pəhləvan mübarizə edir.

1-nci: Qara Maska – Zakoroyko.

2-nci: Muznik – Oleynikov.

3-ncü: Buyvolov – Staroşvili.

Pəhləvanların çıxışı və mübarizənin başlanması saat 11-in yarısında.

Tamaşa başlanacaq 8-də, qurtaracaq 12-də.

Mübarizə Yelizarovun təhti-nəzarətində [nəzarəti altında] olacaqdır.

Elan: Məşhur türk pəhləvanı Gənc Əlinin benefisi hazırlanır.

*11460*

### AŞPAZXANA "QAFQAZ"

Dəniz kənarında Hacı Zeynəlabdin Tağıyev mülkündə Portovı uçaski yanında olan "Qafqaz" aşpazxanası İran natiqlərindən təbrizli Mirzə Hüseyn Məhəmməd oğlu aldığı münasibətilə səliqəli xörəklər hazırlanır münasib qiymətə və divan qulluqçusu üçün 5 prosent əskik hesab olunacaq. Nəqd və zakaz qəbul olunur.

*11464*